Respublika .- 2025.- 14 fevral (№ 32).- S. 5

# Güclü dövlətin və firavan cəmiyyətin qurucusu

*Prezident İlham Əliyev müasir Azərbaycanın qüdrətli lideri, dövlətçilik ənənələrinin qoruyucusu və milli maraqlarımızın müdafiəçisidir. Ali Baş Komandanın uzaqgörən siyasəti, qətiyyətli addımları və sarsılmaz iradəsi sayəsində ölkəmiz beynəlxalq arenada mövqeyini möhkəmləndirərək regionun lider dövlətlərindən birinə çevrilib. Torpaqlarımızın azad edilməsinə nail olan, ölkənin sosial-iqtisadi inkişafını sürətləndirən və xalqını yeni nailiyyətlərə doğru aparan müdrik rəhbər milli birlik və güc rəmzi kimi Azərbaycan tarixində silinməz iz qoyub. Ölkə başçımız yalnız bu günün deyil, gələcəyin də qurucusudur.*

Prezident İlham Əliyev ölkəmizin gücünü, xalqımızın iradəsini və dövlətçiliyimizin möhkəm əsaslar üzərində qurulduğunu ötən illər ərzində bir daha sübut etdi. 2003-cü ildə xalqın böyük etimadı ilə Prezident seçilən İlham Əliyev qarşıya qoyduğu bütün vəzifələri qətiyyət və dəqiqliklə icra edərək Azərbaycanın inkişafına və güclənməsinə nail oldu. Dövlət başçımızın rəhbərliyi ilə ölkəmiz beynəlxalq əlaqələr və daxili sabitlik baxımından mühüm uğurlar qazandı, hərtərəfli tərəqqi yoluna qədəm qoydu, dünyada böyük nüfuz qazandı və ərazi bütövlüyü bərpa olundu. Prezidentin rəhbərliyi ilə həyata keçirilən islahatlar və uzaqgörən siyasət Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirdi.

Ötən il keçirilən seçkilərdə xalqın yüksək etimadını qazanan İlham Əliyev 92,12 faiz səslə yenidən Prezident seçildi. 14 fevralda keçirilən andiçmə mərasimində ölkə başçısı dedi: "İyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi".

Ali Baş Komandanın 2003-cü ildə xalqa verdiyi ən mühüm vədlərdən biri ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Hər zaman bəyan edirdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yalnız Azərbaycanın suverenliyi çərçivəsində mümkündür və xalqımız heç vaxt öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək. Bu qətiyyətli mövqe ölkəmizin 2020-ci ildə qazandığı şanlı qələbənin əsasında dayandı. "Dəmir yumruq" kimi birləşən xalq və rəşadətli Azərbaycan Ordusu Prezident İlham Əliyevin rəhbərliyi ilə düşmən işğalına son qoydu, 44 gün ərzində tarixi ədaləti bərpa etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan bu qələbə bütün türk dünyasının şanlı tarixinə qızıl hərflərlə yazıldı.

Zəfərdən sonra işğaldan azad edilmiş torpaqlarda sürətli bərpa-quruculuq başlandı. Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər, kəndlər salınır, müasir infrastruktur qurulur. Bu, Azərbaycanın gücünün və Prezidentin uzaqgörən siyasətinin təzahürüdür.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan iqtisadi baxımdan da gücləndi. Enerji strategiyası, beynəlxalq tranzit imkanları və genişmiqyaslı sosial islahatlar Azərbaycanın dinamik inkişafını təmin etdi. Dövlət başçısının qətiyyətli addımları sayəsində Azərbaycan zəngin neft-qaz ehtiyatlarını yalnız ixrac etməklə kifayətlənməyib, həm də qlobal enerji təhlükəsizliyində mühüm rol oynayan ölkə oldu. Xüsusilə Cənub Qaz Dəhlizi layihəsi Prezident İlham Əliyevin enerji strategiyasının parlaq nümunəsidir. Bu layihə sayəsində Azərbaycan qazı Avropa bazarlarına çatdırılır və ölkəmiz Avropanın enerji təhlükəsizliyində əsas oyunçulardan biridir. TANAP (Trans-Anadolu Boru Kəməri) və TAP (Trans-Adriatik Boru Kəməri) kimi mühüm enerji layihələri Azərbaycanı dünya miqyasında da strateji tərəfdaşa çevirib. Bundan başqa, ölkəmiz enerji sektorunu diversifikasiya edərək bərpaolunan enerji mənbələrinə də böyük diqqət ayırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz "yaşıl enerji" sahəsində ciddi addımlar atır, Qarabağ və Şərqi Zəngəzur regionlarında günəş və külək enerjisi layihələri həyata keçirilir. Azərbaycanın iqlim siyasətinin ən bariz nümunələrindən biri ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsidir. Bu mötəbər tədbir ölkəmizin "yaşıl enerji" sahəsindəki təşəbbüslərinin beynəlxalq miqyasda qəbul olunduğunu bir daha sübut etdi.








Prezident İlham Əliyevin fəaliyyətində sosial siyasət daim prioritet olub. Ölkədə həyata keçirilən genişmiqyaslı sosial proqramlar sayəsində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalıb, əhalinin rifahı yüksəlib. 2023-cü ildə həyata keçirilən sosial paket bu baxımdan çox əhəmiyyətlidir və vətəndaşların rifahına təsir edən yenilikləri ehtiva edir. 2023-cü ildə ölkə üzrə 1,9 milyon vətəndaşı əhatə edən sosial paket icra olunub. Bu məqsədlə dövlət tərəfindən 750 milyon manat əlavə maliyyə ayrılıb ki, bu da aztəminatlı ailələrin və həssas sosial qrupların rifah səviyyəsinin yüksəldilməsi istiqamətində atılan mühüm addımlardır. Xüsusilə pensiya sistemində tətbiq olunan yeni yanaşma Prezident İlham Əliyevin sosial siyasətinin ədalətli və davamlı inkişaf prinsipinə əsaslandığının bariz sübutudur. 2023-cü ildə pensiyaların vahid indeksasiya metodu ilə artırılması nəticəsində orta pensiya məbləği 436 manata çatıb, yaşa görə orta pensiya 467 manat təşkil edib, ümumilikdə 5,7 milyard manat pensiya ödənişi həyata keçirilib. Bununla yanaşı, müavinət və təqaüd sistemində də ciddi artımlar olub. Müavinət ödənişləri 491 min vətəndaşı əhatə edib. Həmçinin 378 min nəfərə Prezident təqaüdü verilib. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən məşğulluq siyasəti nəticəsində 2023-cü ildə ölkədə işsizlik səviyyəsinin aşağı salınması və yeni iş imkanlarının yaradılması istiqamətində mühüm irəliləyişlər əldə edilib.

Prezident İlham Əliyevin 2024-cü il 23 dekabr tarixli "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncama əsasən bu il qüvvəyə minən yeni sosial paketin əsas istiqamətləri minimum əməkhaqqının və pensiyaların artırılması, sosial müavinət və təqaüdlərin yenidən nəzərdən keçirilməsi ilə bağlıdır. Bu islahatlar bir daha sübut edir ki, dövlət başçısının rəhbərliyi ilə sosial siyasət davamlı inkişaf və sosial ədalət prinsipləri əsasında qurulub. Belə ki, bu il yanvarın 1-dən etibarən minimum əməkhaqqı 16 faiz artırılaraq, 345 manatdan 400 manata qaldırılıb. Bu artım həm də əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi və işçilərin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan mühüm addımdır. Bundan əlavə, fevralın 1-dən minimum pensiya məbləği 14,3 faiz artaraq 280 manatdan 320 manata çatdırılıb. Eyni zamanda 2018-ci ildən 2025-ci ilə qədər minimum əməkhaqqı 3,1 dəfə, minimum pensiya isə 3 dəfə artıb. Bu, ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşdırıldığını göstərir.

Son illərdə minimum əməkhaqqı və pensiyaların artırılması, sosial müavinət və təqaüdlərin əhatə dairəsinin genişləndirilməsi, əmək bazarının inkişafı və işsizlik səviyyəsinin aşağı salınması dövlət siyasətin əsas istiqamətləridir.

Bu gün Azərbaycan xalqı Prezident İlham Əliyev ətrafında sıx birləşərək gələcəyə inamla baxır. Dövlət başçımızın rəhbərliyi ilə ölkəmiz yeni zirvələrə doğru irəliləyir, güclənir və dünya siyasətində mühüm aktor kimi mövqeyini möhkəmləndirir. Azərbaycanın uğurları sübut edir ki, Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz daha böyük nailiyyətlərə imza atacaq və parlaq gələcəyini təmin edəcək.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**